**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSİTUTU**

*Əlyazması hüququnda*

**HÜSEYN GÜNAY PƏNAH QIZI**

# BAKI DƏNİZ LİMANI 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ DÖVRÜNDƏ

5503.02 – "Vətən tarixi"

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2017**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**

Tarix üzrə fəlsəfə elmlər doktoru, professor **A.Ə.Məmmədov**

**Rəsmi opponentlər:**

Tarix üzrə fəlsəfə elmləri doktoru **M.İ.Əmrahov**

Tarix üzrə fəlsəfə elmləri doktoru, dosent **F.R.Cabbarov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi" (humanitar fakültələr üzrə) kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 - Vətən tarixi, 5502.01 – Ümumi Tarix, 5507.01 – Beynəlxalq münasibətlər tarixi və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "___"_________ 2017-cı il tarixli iclasında saat ______-da keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "____" ____________ 2017-cı ildə göndərilmişdir.

**D.01.161 Dissertasiya**
**Şurasının elmi katibi**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** İkinci dünya müharibəsi tarixi, Hitler faşizminin başçılıq etdiyi Almaniyanın SSRİ-yə hücumu, Bakı nefti ilə bağlı A.Hitlerin hazırladığı planlar Azərbaycan xalqının ön və arxa cəbhədə qələbəyə verdiyi töhfə və digər tarixi elmi problemlərin tədqiqi müasir Azərbaycan milli tarixşünaslığı üçün elmi və siyasi əhəmiyyət kəsb edən məsələlərdən biridir. 1941-1945-ci illər müharibəsində Bakı neftinin oynadığı rol, Azərbaycan neftçilərinin fədakar əməyi, burada ön cəbhə üçün istehsal olunan hərbi sursatın, kənd əhalisinin qələbəyə verdiyi töhfəni bəşəriyyət qarşısında əvəzsiz xidmət kimi qiymətləndirən Azərbaycanın mərhum prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyev 1995-ci il may ayının 5-də qələbənin 50 illik yubileyi ilə bağlı keçirilən təntənəli mərasimdə söylədiyi nitqdə: "...İkinci dünya müharibəsində, 1941-1945-ci illər müharibəsində, Hitler faşzmi üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının, xalqımızın, respublikamızın böyük rolu olmuşdur"[1] deyərək ona yüksək qiymət vermişdir.

Yuxarıda göstərilən istiqamətdə tədqiq olunması vacib məsələlərdən biri də 1941-1945-ci illər müharibəsi dövründə Bakı dəniz limanının fəaliyyətinin öyrənilməsidir. İstər sovetlər dövründə, istəsə də, müstəqillik illərində yazılmış əsərlərdə bu mövzu Bakı şəhərinin tarixi kontekstində verilir. Bakı dəniz limanının fəaliyyətinin araşdırılması həm müstəqil tədqiqat predmeti olması baxımından, həm də Bakının müasir tarixinin hərtərəfli öyrənilməsi baxımından zəruridir. Bakı dəniz limanının konkret tədqiqat predmeti kimi götürülməsi problemin yeni tərəflərinin açılmasına imkan verir və liman şəhəri olan Bakının tarixinin mühüm bir sahəsinin daha zəngin sənədlər əsasında öyrənilməsini mümkün edir.

Bakı dəniz limanının beynəlxalq əhəmiyyətinin öyrənilməsi mövzunun aktuallığını şərtləndirən məsələlərdən biridir. Aparılan tədqiqatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, 1920-ci ildə Simali Azərbaycan RSFSR tərəfindən işğal olunduqdan və Xəzər dənizi faktiki olaraq SSRİ-nin daxili sularına çevrildikdən sonra beynəlxalq əhəmiyyətini itirmiş Bakı limanının əhəmiyyəti məhz 1941-1945- ci illərdə yenidən artır.

Yaxın tarixdə baş vermiş geosiyasi dəyişikliklər, Xəzər regionu və Xəzər dənizində dünyanın qlobal güclərinin maraqlarının toqquşduğu müasir şəraitdə Bakı dəniz limanının həm beynəlxalq təhlükəsizliyinin , həm də Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsində əhəmiyyəti fövqəladə dərəcədə artmışdır. Müstəqil Azərbaycanın dəniz dövləti olduğunu, də-

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab. Dekabr, 1994-iyun 1995. Bakı. "Azərnəşr"1997, səh.421

niz donanmasına malik olmasını və dəniz sərhədlərinin möhkəmləndirilməsini nəzərə alaraq, Bakı dəniz limanının tarixinin dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Bakı dəniz limanının və liman kollektivinin 1941-1945-ci illərdəki fəaliyyətinin öyrənilməsi, limanın o dövrki hərbi-strateji əhəmiyyəti və limançıların əzmkar əməyi mövzunu bu gün də aktual edən məsələlərdən biridir. Beləliklə, Azərbaycanın indiki tarixi şəraiti, davam etməkdə olan Ermənistanla müharibə, regionda yeni müharibə təhdidlərinin və Azərbaycana təcavüz təhlükələrinin saxlanması şəraitində Bakı dəniz limanının 1941-1945-ci illərdəki fəaliyyətinin öyrənilməsi ölkəmizin hərbi-müdafiə gücünün artırılması baxımında da böyük əhəmiyyət kəsb edir.

Digər tərəfdən Bakı dəniz limanın və Xəzər dəniz gəmiçiliyinin tarixinin tədqiqi geoiqtisadi əhəmiyyətə də malikdir. Bu mənada dəniz limanının 1941-1945-ci illərdəki tarixinin öyrənilməsi onun bu gün inkişaf imkanlarının artırılması üçün əhəmiyyətli rol oynaya bilər.

Azərbaycan tarixən Avropa ilə Asiya arasında coğrafi və siyasi körpü rolunu oynamışdır. Bu körpünün ən mühüm hissələrindən biri isə şübhəsiz dəniz nəqliyyatıdır ki, bu da onun həm keçmiş, həm də müasir tarixinın öyrənilməsinin aktuallığını artırır.

**Tədqiqatın xronoloji çərçivəsi:** Tədqiqatın xronoloji çərçivəsi əsasən 1941-1945-ci illər müharibəsi dövründə Bakı dəniz limanının fəaliyyətini əhatə edir. Mövzu haqqında tam təsəvvür yaratmaq üçün dissertasiyada limanın qədim dövrdən başlayaraq müharibəyə qədər tarixi də qısa şəkildə tədqiq olunmuşdur.

**Mövzunun öyrənilmə səviyyəsi:** 1941-1945-ci illər müharibəsi keçmiş sovet və xarici dövlətlərin tarixşünaslığında, o cumlədən Azərbaycan tarixşünaslığında geniş tədqiq edilən mövzulardan biri sayılsa da Bakı dəniz limanının İkinci dünya müharibəsi dövründə fəaliyyəti indiyə qədər ayrıca tədqiqat obyekti olmamışdır. Sovet və müasir Azərbaycan tarixşünaslığının ümumləşdirilmiş əsərlərində[1], 1941-1945-ci illər müharibəsi dövründə Azərbaycan, xüsusilə Bakı haqqında elmi monoqrafiyalarda sözü gedən mövzu haqqında qısa araşdırmalara rast gəlinir və limanın fəaliyyəti həmin tədqiqatlarda çox zəif işıqlandırılır[2]. İkinci dünya müharibəsinə həsr

[1] “Azərbaycan tarixi”. VII cild. Bakı: “Elm” 2003; “Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir Письма живая история войны 1941-1945 гг”. Bakı: “Elm ”2009, Azərbaycan Ensiklopediyası. Xüsusi cild. Tarix bölməsi. Bakı: 2007

[2] Вознесенский Н. Военная экономика ССРИ В период Великой Отечественной войне. М.: Госполитиздат, 1947; Белов П.А. Вопросы экономики в современной войне. М.: Воениздат, 1951; Бакаев В.Г. Морской транспорт СССР за 40 лет. М.: Морской Транспорт, 1957; Корякин С.Ф. Экономика морского транспорта. М.: Транспорт, 1959; Со-

olunmuş monoqrafiyalarda Bakı dəniz limanının qələbənin əldə olunmasında rolu və əhəmiyyəti üzə çıxarılmamışdır. Ancaq S.F.Edlinsikinin monoqrafiyası bu baxımdan istisna hesab oluna bilər. Əsərdə Xəzər dəniz idarələri və o cümlədən Bakı dəniz limanı haqqında zəngin tarixi faktlar və məlumatlar vardır.

Sovet dövrü Azərbaycan tarixşünaslığında mövzuya dair bəzi məsələlər Q.Ə.Mədətovun, Q.H.Mehdiyevin, M.Abbasovun, İ.Cəfərovun, N.İmanquliyevin, Ş.O.Orucovun və A.M.Əliyevin, K.Tağıyevin və C.Rzayevin, Q.Y.Əbdülsəlimzadənin, M.A.Abbasovun, B.A.Belyayevanın və digər müəlliflərin monoqrafiyalarında[1] öz əksini tapmışdır.

Lakin Azərbaycanın ikinci dünya müharibəsi dövrünün öyrənilməsi üçün çox əhəmiyyətli olan bu monoqrafiyalarda Bakı dəniz limanı haqqında geniş məlumatlara rast gəlinmir. Bakı dəniz limanının fəaliyyəti adətən sovet tarixşünaslığı nöqteyi-nəzərindən araşdırılırdı. Monoqrafiyalarda Xəzər Quru Yük Daşıma Gəmiçiliyindən (Kapflot), Xəzər Neftdaşıma Gəmiçiliyindən (Kasptanker), Xəzər hərbi donanmasından, dənizçilərin döyüş qəhrəmanlıqlarından geniş bəhs edilsə də, ayrı bir idarə olan Bakı dəniz limanı, limanın müharibə dövrünün tələblərinə uyğun olaraq yenidən qurulması, əhali və xalq təsərrüfatı məhsullarının daşınmasında rolu, plan və öhdəlikləri, limançıların əməyi və uğurları, limanın beynəlxalq əhəmiyyəti ümumi sözlərlə təsvir olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, tədqiqatlarda limanın işində mövcud olan nöqsanlar göstərilmirdi. Buna görə də 1941-1945-ci illər

---

рокин А.И. Великая победа народа и армии. М.: Воениздат, 1984; Митрофанова А.В. Рабочий класс Советского Союза в первый период Великой Отечественной Войны. М.: Издво Акад Наук ССРИ, 1960; Никольский И.В. География транспорта СССР. М.: Издво МГУ, 1960; Кравченко Г.С.Военная экономика ССРИ. М.: Воениздат, 1963; Эдлинский С.Ф. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. М.: Морской транспорт, 1963; Гречко А.А. Битва За Кавказ. М.:Воениздат, 1967; Маковский А.А, Радченко Б.М. Каспийская Кроснознаменная. Изд-е 2-е. –М.: Воениздат, 1982; Ларин А.А. Морские порт: проблемы, перспективи.М.: Знание, 1984.

[1] Беляева В.А. Трудовой героизм рабочих Азярбайджана в годы Великой Отечественной войны (1941-1945 гг.), Бакы: «Азербайджан Изд-во», 1957; Mədətov Q. Azərbaycan Böyük Vətən Müharibəsində. Bakı: "Elm", 1965; Мехтиев Г.Г. Деятельность Коммунистической партии Азербайджана в период великой отечественной войны. 1941-1945. Баку, «Азернешр», 1967; Аббасов М.Г.: Баку в годы Великой Отечественной войны. Баку: «Аз госд издво» 1967; Cəfərov İ. Xəzər dəniz nəqliyyatı Sovet hakimiyyətinin yetirməsidir. Bakı, "Azərnəşr", 1971; Tağıyev K, Rzayev C. Azərbaycanın vahid nəqliyyat sistemi. Bakı, "Azərnəşr", 1975; Orucov Ş.O., Əliyev A.M. Azərbaycan nəqliyyatı Sovet hakimiyyəti illərində. Bakı, "Azərnəşr",1980; Əbdülsəlimzadə Q.Y. Azərbaycan iqtisadiyyatı Böyük Vətən Müharibəsi illərində. Bakı: "Bilik", 1985; Аббасов М.Г. Вклад Тружеников Баку в достижение победы над гитлеровской Германией. Баку, «Военное издательство», 2000

müharibəsi haqqında yazılan əsərlərin yeni baxışa ehtiyacı vardır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra yazılmış əsərlərin mövzunun yenidən öyrənilməsi baxımından böyük əhəmiyyəti var. Müasir dövrdə yazılmış əsərlərdən N.A.Əliyevin, R.C.İmanov və V.S. Həsənovun, C.P.Həsənlinin, İ.H.Əliyevin, P.Q.Darabadinin, E.B.Muradəliyevanın, Ç.A.Sultanovun, M.Ə.Əmrahovun, C.Ə.Bəhramovun və T.S.Aydəmirovun monoqrafiyaları[1] qeyd oluna bilər. Bu monoqrafiyalarda Bakı dəniz limanın keçmişdə və müharibə illərində daxili və beynəlxalq əlaqələrinə dair qiymətli məlumatlar vardır və onlar mövzunun araşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Lakin bu əsərlərdə də Bakı dəniz limanının 1941-1945-ci illər tarixinə çox səthi toxunulur.

Dissertasiya işində istifadə edilmiş ümumiləşdirici əsərlərdən biri yeddicildlik "Azərbaycan tarixi"dir ki[2], bu fundamental əsərdə Bakı dəniz limanının tarixinə dair ən qədim zamanlardan başlayaraq qısa məlumatlar verilmişdir. Burada müharibə illərində limanın əhəmiyyətinə, liman işçilərinin fədakar əməyinə düzgün və ədalətli qiymət verilmişdir.

**Tədqiqatın mənbə bazası:** İşin mənbə bazası tədqiqatın xarakteri ilə müəyyən edilib. Müəllif mövzunu tədqiq edərkən aşağıdakı mənbələrdən istifadə etmişdir:

- Sovet hökümətinin müharibə illərində qəbul etdiyi qərarları;
- Sovet İttifaqı KP MK və həmçinin Azərbaycan KP Mərkəzi Komitəsinin qərarları və sənədləri;
- Ordu komandanlığının əmrləri və direktivləri;

---

[1] Əliyev N.A. Azərbaycanın hərbi-dənizçilik tarixi. II hissə Bakı, "AAHDM", 2005; İmanov R və Həsənov V. Azərbaycan Xəzər dəniz gəmiçiliyinin tarixi. Bakı: "Təhsil", 2003; Həsənli C.P. Güney Azərbaycan:Tehran-Bakı-Moskva arasında (1939-1945).Bakı: "Diplomat", 1998; Yenə onun: Azərbaycan Xalq Cümhuruyyətinin xarici siyasəti 1918-1920.I cild Bakı 2009; Yenə onun: Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939), Bakı, "Adiloğlu", 2012; И.Алиев И.Каспийская нефть Азербайджана.-М.:Известия, 2003; Дарабади П. Геоистория Каспийского Региона и Геополитика современности. Баку, «Элм» 2002; Мурадалиева Э.Б. Кровь земная-нефть Азербайджана и история. Книга 1. -Баку: «Мутарджим». 2005; Султанов Ч. Нефть, Том 1, Баку: «Нафта-Пресс», 2000; Yenə onun: Выстояли бы СССР и Европа против фашизма, в случае потери Бакинской нефти?. Баку, «Нафта-Пресс» 2005; Yenə onun: Bakı nefti Dünya şahmat taxtasında.1939-1945-ci illər (rus dilindən tərcümə), Bakı: "TEAS Press Nəşriyyat evi, 2016"; Əmrahov M.İ. İkinci Dünya Müharibəsi,1939-1945. Bakı, "Mütərcim", 2010; Yenə onun: İkinci dünya müharibəsi tarixinin oçerkləri. Dərs vəsaiti. Bakı: "ADPU-nəş", 2015; Bəhramov C.Ə. Azərbaycan nefti, Bakı, 2010; Айдамиров Т.С. Подготовка кадров для промышленности Азербайджанской ССР (1941-1945 гг.), Баку: "AVROPA", 2017

[2] Azərbaycan tarixi. 7 cilddə. Bakı: "Elm" 2003

- Limanın quruluşu, şəxsi heyətin və texnikanın sayına aid sənədlər, Sovet İttifaqı icra strukturlarının, həmçinin Azərbaycanda analoji qurumların liman rəhbərliyi ilə yazışmaları;

- Müharibə illərinə aid olan dövrü mətbuat;

Dissertasiyanın elmi dəyərini artıran amillərdən biridə onun yazılmasında istifadə olunmuş yeni, bütövlüklə orijinal mənbələrdi. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin (ARPİİSSA) sənədlərinin əksəriyyəti ilk dəfədir ki bu tədqiqatda istifadə olunur. ARDA-nın 411 №-li, 3105 №li fondları, ARPİİSSA-nın 1№-li və 2№-li fondları müharibə ərəfəsində və dövründə limanın fəaliyyəti və statistik məlumatlar baxımından mühüm əhəmiyyət kəsb edirlər. ARDTA-nın 387 №-li fondu çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövrünün öyrənilməsi baxımından mühüm məlumatlarla zəngindir. Müharibə illərinə aid materialların əldə olunması üçün "Pravda", "Bakinskiy raboçiy", "Bolşevik Kaspiya", "Kommunist" qəzetləri çox qiymətli mənbələrdi.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi Vətənimizin yeni və ən yeni tarixində əhəmiyyətli rol oynamış Bakı dəniz limanının elmi cəhətdən əsaslanmış tarixini yazmaq, bu mövzuya dair yeni faktları, sənədləri elmi dövriyyəyə cəlb etmək, Azərbaycanın Bakı dəniz limanının fəaliyyəti nümunəsində İkinci dünya müharibəsində yerini və rolunu müəyyənləşdirmək, Azərbaycan xalqının faşizm üzərində qələbəyə verdiyi misilsiz töhfəsini sübut etməkdir.

Bu məqsədlərin gerçəkləşdirilməsi üçün dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

1. Bakı dəniz limanının 1941-1945-ci illər müharibəsinə qədərki tarixini öyrənmək.
2. Müharibə ərəfəsində limanın ümumittifaq əhəmiyyətini, fəaliyyətini, maddi-texniki bazasını araşdırmaq;
3. Müharibə illərində limanın hərbi qaydalara uyğun yenidən qurulması, onun texniki-təchizat, kadrlarla təminatı və s. problemlərini tədqiq etmək;
4. Limanın düşməndən mühafizəsi və dənizçilərin döyüş qəhrəmanlıqları kimi vacib məsələləri nəzərdən keçirmək;
5. İşğal olunmuş sovet ərazilərindən sənaye müəssisələrinin, əhalinin, yaralı əsgərlərin Şərqə köçürülməsində Bakı limanının misilsiz xidmətlərini, cəbhənin Krasnovodsk-Bakı limanı vasitəsi ilə hərbi texnika və silahlı qüvvələrlə təmin edilməsində rolunu ətrafı təhlil etmək;
6. Müharibə illərində Bakı dəniz limanın beynəlxalq əhəmiyyətinin öyrənilməsi və SSRİ ilə müttəfiq dövlətlər arasında İran limanları vasitəsilə

əlaqələrin qurulmasında onun rolunu araşdırmaq.

7. Bakı limanı işçilərinin, özəlliklə azərbaycanlı dənizçi kadrların və limançıların fədakar əmək qəhrəmanlıqlarını geniş faktiki material əsasında əks etdirmək.

**Dissertasiya işinin metodoloji əsası:** Dissertasiyanın metodoloji əsasını mövcud elmi ədəbiyyatların, fakt və materialların toplanılması və öyrənilməsi, obyektiv və müqayisəli tarixi təhlil, tarixi xronoloji ardıcıllıq və o cümlədən elmi nəticələrin çıxarılaraq ümumiləşdirilməsi təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi:** Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq:

- Bakı dəniz limanı 1941-1945-ci illər müharibəsi dövründə problemi ayrıca tədqiqat obyekti kimi araşdırılmış və kompleks şəkildə tədqiq edilmişdir;
- Yeni arxiv sənədləri, dövrü mətbuat materialları və elmi ədəbiyyat dövriyyəyə cəlb edilmişdir;
- Dissertasiyada Bakı dəniz limanı tarixinin 1941-1945-ci illər dövrü ilk dəfə olaraq ayrı-ayrı sahələr və fəaliyyət istiqamətləri üzrə təhlil olunmuşdur;
- Problemə dair məsələlər ümumiləşdirilmiş, elmi nəticələr çıxarılmışdır;
- Limanın təsərrüfatı geniş tədqiq olunmuş, əhali və xalq təsərrüfatı obyektlərinin köçürülməsindəki rolu, limanın mühafizəsi, kadrlarla təminatı, onların sosial-mədəni həyat şəraiti kimi mühüm məsələlər tədqiq olunmuşdur;
- Bakı dəniz limanının azərbaycanlı işçilərinin əməyi işıqlandırılmışdır;
- Limanın müharibə dövründəki beynəlxalq əhəmiyyəti aydınlaşdırılmışdır;
- Bakı dəniz limanının müharibəyə qədərki tarixi - qədim və orta əsrlər, çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövrləri və 1941-1945-ci illər müharibəsi ərəfəsindəki vəziyyəti geniş təhlil olunmuşdur.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti:** Dissertasiyanın mövzusu, əhatə dairəsi, toplanmış materiallar, onların təhlili və ümumiləşdirilməsi tarix elmimizdə Azərbaycanın 1941-1945-ci illər tarixi ilə bağlı boşluqları doldurmağa kömək edir, yeni milli tarix konsepsiyası, hərb tariximizin öyrənilməsi, həmçinin beynəlxalq əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir. Tədqiqat əsəri 1941-1945-ci illər müharibəsi dövründə alman faşistləri üzərində qələbə qazanılmasında xüsusi əmək və xidməti olan Azərbaycanın, xüsusən də "Qəhrəman şəhər" adına layiq olan Bakının rolunun bir daha təs-

diqlənməsində, Azərbaycan cəmiyyətinin, xüsusilə böyüməkdə olan və gənc nəslin təfəkküründə "Bakı qəhrəman şəhər" anlayışının yaşaması və möhkəmlənməsində faydalı rol oynayacaqdır. Dissertasiyanın materialları və nəzəri müddəalarından dərs vəsaitlərinin yazılmasında, habelə mühazirə və xüsusi kursların oxunmasında, elmi mənbə, elmi ədəbiyyat kimi istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası:** Dissertasiya Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi " şöbəsində müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur. İşin əsas müddəaları və nəticələri müəllif tərəfindən Azərbaycan və rus dilində nəşr edilən 7 adda məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, xronoloji dövrü, mövzunun öyrənilmə səviyyəsi, tədqiqatın mənbə bazası, məqsəd və vəzifələri, metodoloji əsasları və elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və quruluşu göstərilmişdir.

Tədqiqat işinin I Fəsli "**İkinci dünya müharibəsinə qədər Bakı dəniz limanının tarixi" adlanır.** Bu fəsil dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Bakı dəniz limanının təsviri. Liman qədim və orta əsrlər dövründə"** adlanır. Bu yarımfəsildə Bakı dəniz limanının tarixinə keçməmişdən əvvəl liman haqqında təsəvvür yaratmaq məqsədi ilə Bakı buxtası və onun coğrafi quruluşu haqqında qısa məlumat verilir. Bakı buxtasının xəritələrdə ilk dəfə qeyd olunması 1719-cu ildə rus coğrafiyaşünası İ.F.Seymonova məxsus hesab olunur. 1726-cı ilə aid əl ilə çəkilmiş daha təfərrüatlı xəritə isə konkret olaraq "Bakı körfəzinin xəritəsi, dərinliyi və uzunluğu adlanır"[1].

Bakı şəhərinin liman kimi adına X əsrdən başlayaraq ərəbdilli mənbələrdə və XIII əsrin sonlarından başlayaraq Bakıda ticarətlə məşğul olan genuya və veneziyalıların qeydlərində rast gəlinir və limanın fəaliyyəti ilə bağlı ilk məlumatları da bu mənbələrdən əks olunmağa başlanır. Qeyd olunmalıdır ki, qədim və orta əsr mənbələrində liman və şəhər anlayışları fərqləndirilmir və buna görə də Bakı dəniz limanının keçmişi Bakı şəhərinin tarixi ilə paralel təsvir olunur. Orta əsrlərdə Bakı dəniz limanının əsas əhəmiyyəti onun tranzit rolu ilə əlaqədar idi. Liman Xəzər – Volqaboyu

---

[1] Зонн И.С. Каспийская энциклопедия. М.: «Международные отношения», 2004, s.67

ticarət yolu və Böyük İpək Yolunda mühüm tranzit məntəqəsi idi. Ancaq, apardığımız tədqiqatlar göstərir ki, Xəzər dənizi vasitəsilə ticarət müəyyən dövrlərdə kifayət qədər inkişaf etsə də coğrafi vəziyyət və iqlim şərtlərinin (şimalının qışda buz bağlaması) təsiri altında, habelə daxil olduğu imperiya dövlətlərinin ucqarlarında yerləşməsi səbəbindən Bakı dəniz limanı qədim və orta əsrlərdə Osmanlı imperiyası və Avropa ölkələrindəki dəniz nəqliyyatı və limanlarının malik olduğu inkişaf səviyyəsinə çata bilmir. Bütün bunlar Azərbaycanın Xəzər dənizi tərəfdən daima hücuma məruz qalması və sonra Rusiya tərəfindən işğalı üçün zəmin yaratmışdır. Rusiya Xəzər akvatoriyasının işğalını burda məhz rus tacirlərinin təhlükəsizliyin təmin edilməsi bəhanəsi ilə həyata keçirmişdi.

İkinci yarımfəsil "**Bakı dəniz limanı Çar Rusiyasının hakimiyyəti illərində. Bakı Dəniz limanı idarəsinin yaradılması" adlanır.** Xəzər dənizində müasir gəmiçiliyin inkişafı XVIII əsrdə regionda ən güclü dəniz dövlətinə çevrilən Rusiyanın Xəzər regionu istiqamətində ekspansiyası ilə başlayır. XVII əsrin sonu XVIII əsrin əvvəllərində hərbi, sosial-iqtisadi və siyasi cəhətdən xeyli möhkəmlənmiş Rusiya öz iqtisadi və ticari maraqlarının təminatı üçün Xəzər dənizi akvatoriyasını işğal edir. Çar I Pyortrun dövründə onun təşəbbüsü ilə Xəzər dənizi və o cümlədən Bakı buxtası ilk dəfə olaraq tamamilə tədqiq edilərək oyrənilir, tədqiqat işləri nəticəsində xəritələr tərtib olunur[1]. Rusiya imperiyası I Pyotrun dövründə işğal olunmuş Xəzərboyu əyalətləri onun ölümündən sonra müxtəlif səbəblər üzündən əlində saxlaya bilməsə də gələcək əlaqələr və işğal üçün zəmin yarandı. Etiraf etmək lazımdır ki, Bakı dəniz limanı Rusiyanın işğalı dövründə daha da inkişaf etməyə başladı. Xəzərin digər əraziləri ilə artıq əlaqə saxlamaq təcrübəsinə malik olan liman bu dövrdən başlayaraq Rusiyanın intensiv dəniz ticarətinin Xəzər dənizindəki mərkəzi oldu. 1859-cu ildən Bakı dəniz limanının tikintisinə başlanılır[2].

Bakı dəniz limanının inkişafı üçün ən mühüm amil neft sənayesinin inkişafı oldu. Belə ki, dəniz nəqliyyatı artıq Qafqazda nəinki xarici, həm də daxili əlaqələrdə getdikcə daha artıq əhəmiyyət kəsb edir və nəqliyyatın məhz bu növündə neft daşımaları əsas yer tuturdu. Təkcə beş il ərzində, 1894-1898-ci ilə qədər Bakı limanının yük dövriyyəsi 40 dəfədən çox artaraq 350 milyon pud təşkil etdi. Həmin dövrdə öz yük dövriyyəsinə görə Bakı dəniz limanı Rusiya limanları arasında ikinci yer tuturdu [3].

Bakı dəniz limanının əhəmiyyətini nəzərə alaraq hökümət tərəfindən 3 iyun 1902-ci ildə "Dəniz qırağı limanların idarə olunması haqqında" əmr

---

[1] Azərbaycan tarixi. 7 cilddə. III cild. Bakı,1999, s.355
[2] Azərbaycan Sovet Ensiklopediyası 10 cilddə. II cild. Bakı, 1978, s 551
[3] Azərbaycan Tarixi. 7 cilddə. IV cild. Bakı:, 2000, s.234

verildi. 1 iyul 1902-ci ildə faktiki olaraq Bakı ticarət limanının bir idarə kimi yaradılmasına başlandı. 21 iyul 1902-ci ildə liman müstəqil idarə kimi fəaliyyət göstərməyə başladı[1]. Böhran illəri və birinci dünya müharibəsi dövrü limanın ticarət dövriyyəsinə demək olar ki, təsir etmədi. Liman sərnişin, quru yük və neft daşımasında digər limanlar arasında xüsusilə seçilirdi.

İmperiya öz iqtisadi maraqlarından dolayı dəniz nəqliyyatının və Bakı dəniz limanının inkişafı üçün müəyyən tədbirlər görürdü. İnkişafa təkan verən əsas səbəb neftin daşınması idi. Bununla bərabər liman vasitəsilə əhəmiyyətli dərəcədə yük və sərnişin daşınması əməliyyatları yerinə yetirilir, eyni zamanda əhalinin işlə təmin olunması, Bakıda əvvəllər bu şəhər üçün xarakterik olmayan yeni sahələrin yaranması, quruda və suda olan zəngin təbii resursların istehsal dövriyyəsinə cəlb olunması, əhalinin məskunlaşmasında, şəhərləşmənin inkişafında mühüm iqtisadi əhəmiyyət kəsb edirdi. Bakı dəniz limanı beynəlxalq yükdaşımalarda öz sözünü deməyə başlayırdı. Ancaq öz əhəmiyyətinə baxmayaraq liman öz dövrünün müasir tələblərinə tam cavab vermirdi. İşlərin yerinə yetirilməsi zamanı keyfiyyətə deyil, kəmiyyətə çox üstünlük verilirdi. Xəzər dəniz nəqliyyatı və Bakı dəniz limanında işləyənlərin isə mütləq əksəriyyətini qeyri-millətlərdən olanlar təşkil edirdi.

Üçüncü yarımfəsil **“Bakı dəniz limanı Azərbaycan Demokratik Respublikası dövründə” adlanır.** 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikası elan edilməsi ilə Bakı dəniz limanının diplomatik və beynəlxalq-hüquqi tarixində yeni mərhələ başladı. Xəzər məsələsi və onun tərkib hissəsi olaraq Bakı dəniz limanının məsələsi ADR elan edildikdən sonra onunla bağlanmış ilk dövlətlərarası müqavilədə öz əksini tapdı[2].

Bakıya köçdükdən sonra dərhal sonra Azərbaycan milli hökuməti sosial-iqtisadi islahatlar həyata keçirməyə başladı. Bu islahatlara Bakı dəniz limanının idarə edilməsi və su nəqliyyatı sistemi də daxil idi. Bakı ticarət limanı idarəsinin fəaliyyəti bərpa edildi. Bakı, Mahaçqala, Salyan, Lənkəran limanları arasında gediş-gəliş sərnişin və yük daşınması yenidən təşkil olundu .[3]

Bakının general Tomsonun başçılığı ilə Böyük Britaniya qoşunları tərəfindən müvəqqəti işğalı zamanı Bakı dəniz limanı ticarət gəmiləri ilə birlikdə ingilis komandanlığının sərəncamına keçdi. Ticarət donanmasını idarə etmək üçün Bakıda xüsusi “İngiltərə dəniz nəqliyyatı” idarəsi yaradıldı.[4] Uzun sürən diplomatik danışıqlardan sonra 1919-cu il avqust ayının

---

[1] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (bundan sonra- ARDTA). F.387, siy. 1, iş 2, v.2-3
[2] Azərbaycan Tarixi. 7 cilddə. V cild. Bakı, 2001, s.324
[3] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasi II cilddə. I cild. Bakı, 2004, s.63
[4] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasi II cilddə. I cild. Bakı, 2004, s.63

sonlarında Bakını tərk etdikləri zaman ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, hərbi sursat və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökümətinə verdilər.

Bu hadisələrdən sonra dəniz nəqliyyatının güclənməsi işinə daha da önəm verilməyə başlandı. Limanda müasir quruculuq işlərinin görülmə başlandı.

Bakı dəniz limanı müstəqil və yeni Azərbaycan dövlətinin inkişafına xidmət göstərməyə başlasa da bu uzun çəkməmişdi. Sovet Rusiyası tərəfindən işğal ərəfəsində çətinliklə də olsa Bakı dəniz limanının təsərrüfatı xeyli genişlənmiş, yeni iş yerləri açılmış, gəmilər və texniki avadanlıqlar alınmağa başlamışdı. İnkişaf etməyə başlayan dəmiryol şəbəkələri və dəniz nəqliyyatının əlaqəli fəaliyyət göstərməsi ölkədə sənaye və kənd təsərrüfatı sahələri arasında əlaqələndirmənin yaranmağına səbəb olurdu. Bütün bunların fonunda daxili və xarici ticarət bazarı da genişlənirdi. Təəssüf ki, bütün bunlara Bolşevik Rusiyası tərəfindən 1918-ci il aprel ayının 20-də Azərbaycan faktiki olaraq işğal olunması ilə son qoyuldu.

Mütləq qeyd olunmalıdır ki, bu dövrdə Bakının AXC- nin paytaxtı elan olunması, Bakı dəniz limanının beynəlxalq hüquqi statusunun Azərbaycana məxsusluğunun və Bakı dəniz limanında qeydiyyatda olan gəmilərin Azərbaycan mülkiyyətində olmasının təsbit edilməsinin və bunun Rusiya, İran və aparıcı dünya dövlətləri tərəfindən tanınmasına nail olunması Bakının sonradan Azərbaycan şəhəri və paytaxtı kimi saxlanmasında həlledici rolu oldu.

Dördüncü yarımfəsil **“Bakı dəniz limanı 1920-1930-cu illərdə. Liman ikinci dünya müharibəsi ərəfəsində” adlanır.** Azərbaycan İnqilab Komitəsi 1920-ci il iyunun 6-da Xəzərdə dəniz nəqliyyatını milliləşdirmək haqqında dekret elan etdi. Bu dekretə görə Xəzərin nəqliyyat gəmiləri, sahildə yerləşən dəniz nəqliyyatı müəssisələri milliləşdirilib ümumxalq mülkiyyəti elan edildi.[1]

SSRİ iqtisadiyyatının dirçəldilib inkişaf etdirilməsinə yönəldilmiş siyasi kursa əsasən Bakı dəniz limanına müəyyən qədər diqqət ayrılmağa başladı. Burada əsas məqsəd Rusiya iqtisadiyyatı üçün vacib olan Azərbaycan neftinin daşınması idi. Yükdaşıma dövriyyəsi digər limanlardan qat-qat çox olsa da Bakı dəniz limanı sənayeləşdirmə dövründə yük dövriyyəsi tələbini ödəmirdi. Limanın texniki-təchizat, kadr siyasəti çox aşağı səviyyədə idi. 20-ci illərdə Bakı dəniz dəniz limanı əsasən Rusiya Federasiyası tərəfindən vəhşicəsinə talan olunan neftin daşınması xidmətini göstərirdi. 30-cu illərdə limana az da olsa diqqət ayrılmağa başlanıldı. 1934-cü ildə Bakı dəniz limanı müstəqil təsərrüfat idarəçiliyinə keçdi. İdarəçilikdə yenidənqurmalar aparıldı.

---

[1] Cəfərov İ. Xəzər dəniz nəqliyyatı Sovet hakimiyyətinin yetirməsidir. Bakı, 1971, s.8

1934-cü ildə Abşeron körpüsü, 1937-ci ilin martında Bakı dəniz limanında iri tonluq kranı olan ilk mexanikləşdirilmiş körpü istifadəyə verildi. Bakı limanının abadlaşdırılması sayəsində Xəzər dəniz nəqliyyatının yük dövriyyəsi 1937-ci ildə 14.1 mln. tona çatdı.[1]

Bakı dəniz limanının yenidən tikilməsi və genişlənməsi, yeni avadanlıq və mexanizmlərlə təchiz olunması 1920-ci ilə nisbətən 1940-cı ildə onun yük dövriyyəsi 6 dəfə artırdı.[2] Yükdaşımalardakı struktur dəyişiklikləri limanın işinə əsaslı təsir göstərirdi. Bu vəziyyətlə və yeni yük axını üçün mexanizmlərin azlığı ilə bağlı olaraq mexanizmləşdirilmiş emalın (yükləmə-boşaltma) cəlb edilmə faizi emal olunan yükün ümumi miqdarının 15-25 faizini təşkil edirdi.

İkinci dünya müharibəsi ərəfəsində SSRİ rəhbərliyi tərəfindən limanın inkişafı üçün xüsusi tədbirlər görülmürdü. Limanın hazırkı vəziyyəti vəhşicəsinə talan edilən Azərbaycan neftinin daşınması üçün onlara kifayət edirdi. Limanda görülən bəzi yenidənqurma işləri də yükdaşımaların artırılması üçün edilirdi. Bakı dəniz limanından daşınan neft bütünlüklə Rusiya sənaye və kənd təsərrüfatının inkişafına yönəldilirdi. Yükdaşımalar köhnə gəmilər və bərələrdə həyata keçirilirdi. Yükdaşımanın miqyası da müharibədən əvvəlki SSRİ təsərrüfatı üçün kifayət edirdi. İxtisaslı kadrların sayı da az idi. Bundan başqa 1937-ci il repressiyaları zamanı limanın bir sıra kadrlarının repressiyalara məruz qalması ixtisaslı kadrların yetişdirilməsinə mənfi təsir göstərmişdi. SSRİ hakimiyyətinin ölkəni bütün dünyadan dəmir pərdə ilə təcrid etməsi Bakı dəniz limanının inkişaf edərək beynəlxalq əhəmiyyətli limana çevrilməsinin qarşısını aldı. Rəhbərlik Azərbaycanın Şimalı və Cənubu arasında müharibədən əvvəlki dövrdə müstəqil heç bir siyasi, ticari və mədəni əlaqələrin qurulmasında maraqlı deyildi. Yalnız ikinci dünya müharibə dövründə, yəni 1941-ci ilin iyunundan başlayaraq limanın işi müharibədən əvvəlki dövrlə müqayisədə kəskin fərqli mahiyyət kəsb edir. Bakı dəniz limanına duyulan ehtiyac onun beynəlxalq siyasi və iqtisadı və hərbi strateji əhəmiyyətini yenidən üzə çıxartdı. Müharibə dövrünün artan tələbləri Bakı dəniz limanının işinin yenidən qurulmasını şərtləndirdi və onun inkişafında yeni mərhələnin başlanmasına səbəb oldu.

Dissertasiyanın II Fəsli **"İkinci dünya müharibəsinin başlanması. Bakı dəniz limanının hərbi-strateji əhəmiyyətinin artması, onun müharibə dövrünə uyğun yenidən qurulması"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir.

---

[1] Керимов. Ф.Л.Развитие судохотства и судоремонта в Азербайджан. Автореферат дис канд. наук Баку, 1980 s.18

[2] Tağıyev K və Rzayev C. Azərbaycanın vahid nəqliyyat sistemi. Bakı, 1975, s.19

Birinci yarımfəsil **“Müharibə illərində Bakı böyük dövlətlərin diqqət mərkəzində”** adlanır. Müharibə ərəfəsində Xəzər bölgəsi, xüsusilə Bakı neft sənayesi rayonu qarşı-qarşıya duran hər iki tərəf üçün böyük hərbi-strateji əhəmiyyət kəsb edirdi. Bu baxımdan həm qərb dövlətləri, həm faşist Almaniyası həm də iqtisadiyyatı yenicə dirçəlməyə başlayan SSRİ üçün Bakı nefti həyati əhəmiyyət daşıyırdı.

İkinci dünya müharibəsi ərəfəsində Almaniya ilə əməkdaşlıq müqaviləsi bağlayan SSRİ Qərb müttəfiqləri üçün ciddi təhlükəyə çevrildiyindən, ingilis və fransız hökümətləri ona qarşı müxtəlif hərbi planlar hazırlayırdılar. Bu planlardan ən başlıcası Cənubi Qafqaza hücum edib Bakını bombardman etmək idi. 1940-cı ildə müttəfiqlərin Bakını bombardman etməsi planı daha da dəqiqləşdirildi. Fransızların Türkiyənin hava yollarından istifadə edərək Bakının bombardman edilməsi planına Türkiyə höküməti razılıq vermədi.[1] Qərb dairələrinin Bakı ilə bağlı planları faşist Almaniyasının Avropada böyük hərbi qələbələr əldə etməsi ilə dayandı.

Qafqaz və xüsusən də Bakı alman faşistlərinin planlarında xüsusi yer tuturdu. Xüsusən Bakının ələ keçirilməsini özündə əks etdirən “Barbarossa planı”, “Qafqaz və Bakı nefti ” adlı planlar hazırlandı. 1941-ci ilin mayında alman qərargahı belə qərara gəldi ki, “Almaniya neftə olan tələbatını ancaq Qafqaz hesabına ödəyə bilər”.[2] Ancaq almanların xüsusən Bakını ələ keçirmək üçün hazırladıqları “Blau əməliyyatı” adlanan 41 saylı direktivləri, “Edelveys” planı da uğursuzluqla nəticələndi.[3]

Almanlarla eyni zamanda müttəfiq dövlətlərin də Bakıya marağı böyük olmuş və SSRİ rəhbərliyinə Bakının birgə müdafiəsi üçün təkliflər edilirdi. Lakin SSRİ rəhbərliyi hər hansı ikinci dövlətin bura girməsinə yol vermədi. Rəhbərlik bu şəhərinin əhəmiyyətini çox gözəl başa düşürdü. Çünki, Bakının hərbi strateji əhəmiyyəti onun yalnız neftə malik olması deyil, əlverişli coğrafi mövqeyi də səciyyələnirdi. Müharibənin müəyyən bir dövründə SSRİ müttəfiq dövlətlərlə yalnız Bakı dəniz limanı vasitəsilə əlaqə saxlaya bilmişdi.

İkinci dünya müharibəsi Bakı dəniz limanının beynəlxalq siyasi-iqtisadi əhəmiyyətli liman mövqeyinə malik olduğunu sübut etdi.

İkinci yarımfəsil ***“Limanın hərbi qaydada yenidən qurulması, texniki-təchizat və daxili mühafizə problemlərinin həll edilməsi*** adlanır. Müharibə dövrünün tələbləri ilə əlaqədar olaraq limanın istehsalat bazasını

---

[1] Həsənlı C. İkinci Dünya Müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945), Bakı ,2015, s 38-39

[2] Мурадалиева Э.Б. Кровь земная-нефть Азербайджана и история. Книга 1. -Баку, 2005, s.202

[3] Yenə orada: s.211

böyütmək, onu yeni güclü mexanizmlərlə təchiz etmək lazım idi. Bu məqsədlə Bakı dəniz limanının gəmi dayanacaqları yeni avadanlıqllara təchiz olunmuş, 700 metr uzunluğunda yeni yol salınmışdı. Yeni elektrik stansiyasının, müxtəlif liman mexanizmlərinin tikintisinə başlandı. Bir sıra körpülər təmir olundu, körpülərin girişləri dərinləşdirildi.[1] Eyni zamanda limanda düşməndən müdafiə məqsədilə müxtəlif hərbi-müdafiə tədbirləri görülməyə başladı. Liman öz yük dövriyyəsini yeni alınmış müxtəlif tipli kranlarla daha da artırdı. 1942-ci ildə abadlaşdırma işləri davam etdi. Liman ərazisində yeni dəmir yol xətləri çəkildi, yeni elektrik stansiyalarının tikilməsinə başlanıldı. Yüklərin bilavasitə yüklənib boşaldılma variantı - vaqon-gəmi və ya əksinə üstünlük təşkil etməyə başladı. Liman ərazisinin əhəmiyyətli hissəsi asfaltla örtüldü [2] .

1943-1944-cü illərdə limanın yenidən qurulması işinin genişləndirilməsi davam edirdi. Həmin illərdə Bakı limanının yenidən qurulmasına bir neçə milyon pul xərclənmişdi. İşin sürətlənməsi üçün hətta avadanlıqlar layihə və nəzərdə tutulan xərclərin cədvəlinin təsdiqi olmadan verilirdi.[3]

1943-cü ildə limanda yük mexanizmlərinin sayı artmış, elektrik təsərrüfatı tamamilə qaydaya salındı.[4]

1944-cü ilin əvvəlində liman pirsin hər iki tərəfinə yerləşdirilmiş güclü mexanizasiyaya, yük əməliyyatlarının aparılması üçün abadlaşdırılmış əraziyə, liman daxili dəmir yolu və magistrala çıxan yol şəbəkəsinə, böyük ərazili anbara, həmçinin Keşlədə yenidən yaradılmış yükboşaltma bazasına malik idi. Limanın daşınma qabiliyyəti ildə 2-2.5 mln ton yük təşkil edirdi.[5] 1944-cü ilin sonu, 1945-ci ilin əvvəllərində limanda yenidənqurma işləri tamamilə qurtarmışdı.

Bəzi subyektiv və obyektiv səbəblərdən asılı olan mənfi məsələlərə baxmayaraq 1941-1945-ci illərdə Bakı dəniz limanının görkəmi yenidənqurma nəticəsində tamamilə dəyişilir. Liman müharibə dövrünün tələblərinə cavab verməyə başlayır. Ərazi sahəsi daha da böyüyən limanın texniki təchizat problemlərinin əksəriyyəti həll olunur, o müasir avadanlıqlarla təmin olunmağa başlayır. Bakı dəniz limanı artıq öz müasir görkəmini almağa başlamışdı.

Müsbət bütün işlərə baxmayaraq liman işində mənfi cəhətlər də çox

---

[1] Эдлинский С.Ф. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. М., 1963. s.70

[2] ARPİİSSA. F.2, siy. 53, iş 24, v.18

[3] Эдлинский С.Ф. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. М, 1963, s. 192

[4] ARPİİSSA . F. 2 siyahı 33, iş 1, v.45

[5] Azərbaycan Respublikası Dövlət Arxivi (bundan sonra-ARDA). F.3105, siy.2, iş 40, v.1

idi. Bunlardan biri də mühafizə işinin zəifliyi və oğurluq hadisələri idi. Arxiv sənədlərində oğurluq hadisələri qeyd olunsa da o dövr mətbuatında bu kimi məlumatlara az rast gəlmək olur. Bunun səbəbi yəqin ki, oğurluqların sayının rəhbərlik tərəfindən açıqlanmasına yol verilməməsi, keçmiş sovet ideologiyasına məxsus olaraq sovet insanının ideallığını göstərmək olmuşdur. Ancaq faktların az olmasına baxmayaraq bunun heç də tam belə olmadığı meydana çıxır.

**Üçüncü yarımfəsil "1941-1945-ci illər müharibəsi illərində Bakı dəniz limanının kadrlarla təminatı və onların sosial-mədəni həyat şəraiti"** adlanır. Müharibə illərində Bakı dəniz limanının da qarşısında duran ən vacib məsələlərdən biri də kadr probleminin həlli idi. Çünki ilk günlərdən başlayaraq limanın bir çox işçiləri cəbhəyə getmiş, həm də liman birdən-birə artan yük dövriyyəsini mövcud əmək qüvvəsi bazası ilə həll edə bilmirdi.

Problemin həlli məqsədilə mərkəzi və yerli hakimiyyət orqanları limana köməklik göstərməyə başladılar. Limanda işləməyə kolxozçular, evdar qadınlar, şəhər əhalisi gəlməyə başladı. Müharibənin ilk günlərində Bakı limanının təşkil etdiyi kurslarda qadınların sayı artmaqda davam edirdi. Limanda işçilər arasında geniş təşviqat işləri aparılırdı. 1942-ci ildə mexaniki avadanlıqdan istifadə edə biləcək kadrlar hazırlamaq üçün Bakı dəniz limanı nəzdində mexanizatorlar kursu və başqa ixtisaslar üzrə kurslar təşkil edildi. Bakı dəniz limanına Azərbaycanın digər limanlarından, həmçinin Həştərxandan, Quryevdən fəhlə göndərilir. 1942-ci ilin yanvarında Dövlət Müdafiə Komitəsinin qərarı ilə Bakı dəniz limanına ordu hissəsindən 1000 nəfərlik fəhlə batalyonu göndərildi.[1] Fəhlə təchizatı şöbələri yaradılır.[2] Dənizçilərin pensiya məsələlərinə də müharibə dövründə diqqət edilirdi. Sərt iş və intizam qaydaları təşkil olundu. Oğurluq, işdən yayınma halları ilə əlaqədar olanlar hərbi tribunala verilirdi.

1943-1944-cü ildə mexanizatorların sayı 430 nəfərə qədər çatdırıldı. Onların arasında kişilər 22, qadınlar isə 78 faiz təşkil edirdi. Rəhbərlik tərəfindən 1944-cü il üçün 1029 adamın ixtisaslaşdırılması planlaşdırılmışdı. Ancaq faktiki olaraq isə 1256 nəfərin ixtisaslaşması aparıldı.[3]

1944-cü ilə kadrların hazırlanması üzrə plan bütün liman obyektlərinin xüsusən də istehsal sahələrin mexanikləşdirmə sahələri, tikinti şöbəsi, avtonəqliyyat, rabitə mexaniki emalatxanalarının kadrlara olan ehtiyacları nəzərə alınmaqla müəyyənləşdirilirdi. Hazırlıq növləri istehsalatdan ayrılmadan əsasən birbaşa iş yerində olmaqla müddəti 1 aydan 3 aya qədər nəzərdə tutulurdu. Hazırlıq üçün nəzərdə tutulmuş pul xərcləri Xəzər donan-

---

[1] Mədətov Q. Azərbaycan Böyük Vətən Müharibəsində. Bakı, 1965, s.178
[2] ARDA. F. 411, siy. 12, iş 106, v.265
[3] ARPİİSSA. F. 2, siy. 53, iş 9, v.37

ması idarəsindən alınmış mövcud normativlər əsasında hesablanılırdı. 1944-cü ildə Bakı limanı üçün kadrların hazırlanmasına ayrılmış xərclər ümumilikdə 624 min rubl təşkil edirdi.[1]

Müharibə dövrünə aid tədqiqat əsərlərində işçilərin iş və yaşayış şəraitləri standartları haqqında demək olar ki məlumat yoxdur. İşçi qüvvəsi kontingentinin müharibəyə qədər olan dövrdən təqribən 3 dəfə artmasına baxmayaraq mənzil fondu və mədəni-məişət idarələrinin genişləndirilməsi həyata keçirilməmişdir. 1943-cü ildən başlayaraq bu sahəyə diqqət artırılmağa başlanıldı. Fəhlələrin yaşayış yeri ilə, ərzaqla təmin edilməsinə, uşaq bağçalarının təşkil edilməsinə diqqət artırıldı.

1941-1945-ci illər müharibəsi dövrünün çətinliklərinə baxmayaraq liman işçiyə olan tələbatında çətinlik çəkmədi. Bu sahəyə dövlət xüsusi diqqət yetirirdi. Limanın kadrlarla təmin edilməsinə artan diqqət müharibə dövründə onun strateji əhəmiyyətli sahə olması ilə bağlı idi. Limana işlərin öhdəsindən gəlmək və işçilərə kömək məqsədi ilə tez-tez fəhlə və əsgər batalyonları göndərilirdi. İşçilərin bir çoxunun müharibəyə getməsinə baxmayaraq bir çox könüllü vətənpərvərlər onları tam layiqincə əvəz etdilər. Liman işçilərinin böyük sayının bu zaman azərbaycanlılardan təşkil olunmasına da diqqət yetirmək lazımdır. Həmçinin liman işçilərinin gender balansında da dəyişikliklər baş verir. Əvvəllər sayları çox az olan qadınlar artıq işçilərin mühüm bir qismini təşkil edirdi.

II Fəslin dördüncü yarımfəsli **"Müharibə illərində Bakı dəniz limanının və Xəzər dənizində yükdaşıma təhlükəsizliyinin təmin olunması"** adlanır. Müharibənin ilk mərhələsində Xəzər dənizindəki limanların, o cümlədən Bakı dəniz limanında hərbi təhlükəsizliyin təmin olunması ən başlıca vəzifələrdən biri idi. Təhlükəsizliyin təmin olunması ilə əlaqədar limanda bir sıra müdafiə məqsədli tikinti işlərinə başlanmış, burada yeni avadanlıqların quraşdırılmasına başlanmışdı. Limanın mühafizə olunması üçün donanma qərargahı aviasiya qüvvələri ilə birlikdə gəmilərin birgə əməliyyat keçirmələrinə dair sənədlər işləyib hazırlamışdı. Xüsusən bu tədbirlər 1942-ci ildə daha vacib əhəmiyyət kəsb etməyə başladı. 1942-ci ildə Cənubi Qafqazın quru yolları alman ordularının hücumu və işğalı zamanı kəsilmiş, hərbi hissələrin, döyüş texnikasının, müxtəlif növ xalq təsərrüfatı mallarının, həmçinin neft və neft məhsullarının göndərilməsi yalnız dəniz yolu ilə mümkün idi. Gəmilərin Xəzər dənizində mühafizəsini əsasən Xəzər hərbi donanması həyata keçirirdi.[2]

---

[1] Yenə orada. F. 2, siy. 33, iş 1, v..22-23

[2] Кадурин Н.Защита Каспийской флотилией морских перевозок. Военно-исторический журнал, №4, "Красная Звезда",1978, s.50

1942-ci ilin avqustundan etibarən Bakı-Həştərxan və Bakı-Mahaçqala yolu ilə yük daşınması kəskin şəkildə azaldılmış, Bakı-Krasnovodk-Quryev xətti ilə yük daşınması birdən-birə artırılmış və sonra Orta Asiya dəmir yolu vasitəsilə mənzilə çatdırılmışdır.

1943-cü ilin iyununda almanlar Bakı dəniz limanından Həştərxana neft daşıyan gəmilərə hücum etməklə ordunun maşın və hava qüvvələrinin gücünü azaltmağa çalışırdılar. Qeyd olunmalıdır ki, Stalinqrad döyüşlərinin ən qızğın vaxtında Xəzər hərbi donanmasının müşayiəti ilə Xəzər dənizində 434472 adam, 46 təyyarə, 791 tank, 346 zirehli avtomobil, 4112 maşın, 22 traktor, 173730 at, 313257 ton döyüş sursatları və digər yüklər daşınmışdı.[1] SSRİ Ali Sovetinin Rəyasət heyəti cəbhə ordu komandanlığı adından alman işğalçıları ilə döyüş cəbhəsində komandanlığının döyüş tapşırıqlarını yerinə yetirməsi və bu zaman göstərilmiş qəhrəmanlıq və mərdliyə görə "Döyüşdə Xidmətlərinə görə" medalı ilə aralarında azərbaycanlıların da olduğu bir sıra dənizçi və liman işçilərini dəfələrlə mükafatlandırmışdı. Müharibə illərində iş başında olarkən düşmənlə döyüş zamanı yüzlərlə Xəzər dənizçisi həlak olmuş və yaralanmışdı. Ancaq Xəzər Hərbi Donanması böyük güc sərf edərək gəmilərin Xəzər və Volqadan əsasən təhlükəsiz keçmələrini təmin etmişdi.

III Fəsil **"Müharibə illərində Bakı dəniz limanının fəaliyyəti və qələbənin əldə olunmasında misilsiz əhəmiyyəti və rolu"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil "**İqtisadi və hərbi strateji xarakterli vəzifələrin yerinə yetirilməsində Bakı dəniz limanının rolu" adlanır.** İkinci dünya müharibəsi zamanı Bakı dəniz limanı işğal olunmuş ərazilərin əhalisinin və avadanlıqların, həmçinin hərbi texnikanın və yaralı əsgərlərin cəbhəyə daşınması kimi mühüm bir vəzifə qarşısında idi. Müharibənin başlanması ilə əlaqədar Bakı dəniz limanının iş qrafiki ciddi surətdə dəyişdi. Bakı dəniz limanı həm köçürülən sərnişin və yükləri qəbul edib yola salmalı həm də cəbhəyə hərbi silahları və benzini vaxtında ötürməli idi.

Müharibəsinin ilk 6 ayı ərzində Bakıdan Şərq rayonlarına 1.028 min adam, 11343 vaqon və çoxlu sənaye müəssisəsi avadanlığı daşındı.[2] Yalnız 1941-1942-ci illərdə 60 minə yaxın yaralı və xəstə döyüşçü daşınmışdır.[3] 1941-ci ilin dekabrından başlayaraq işğal olunmuş ərazilərdən köçürülən yüklər və əhalinin daşınması cəbhədə vəziyyətin dəyişməsi ilə əhəmiyyətli dərəcədə ixtisar olundu.

---

[1] Победа была бы невозможна без Бакинской нефти, Баку, 2005, s.50

[2] Mədətov Q. Azərbaycan Böyük Vətən Müharibəsində. Bakı, 1965, s.175

[3] Буниятов З.М., Зейналов Р.Э. От Кавказа до Берлина. Баку, 1990, s.55

1942-ci ilin may ayının sonunda cənub cəbhəsində döyüşlərə bağlı olaraq köçürülmənin ikinci hissəsi başlandı. 1942-ci il döyüşlərin qızğın vaxtında Donbas və Şimali Qafqazdan ölkənin şərq rayonlarına sənaye müəssisələrinə köçürülməsi Bakı dəniz limanı vasitəsi ilə həyata keçirilirdi.

1942-ci ilin payızında Qafqaz uğrunda döyüşlər nəqliyyatın nisbətən nizama salınmış ahəngdar işini yenidən xeyli mürəkkəbləşdirdi. Cəbhəni yanacaq və döyüş ləvazimatı ilə təchiz edən dəmir yolu xətti də kəsildi. 1942-ci ilin avqust ayından dekabr ayına qədər Kaspflotun gəmiləri Bakı dəniz limanından Həştərxana, Quryev və Krosnovodsk limanlarına Maykop, Qrozni mədənləri və zavodlarından gətirilmiş yüz min tonlarla ağırlığı olan çoxlu avadanlıq, habelə Rostov kənd təsərrüfatı maşınlarının avadanlığını daşımışdı.[1]

1942-ci il yük axınının limana ən çox daxil olduğu dövrdür. 1942-ci ildə Xəzər dənizçiləri cəbhə və ölkə üçün 1.496.000 ton neft və neft məhsulları daşıdılar. Həmin ildə onlar təkcə neftdaşıyan gəmilərdə 145 min döyüşçü və 6000 vaqon hərbi texnika daşımışdılar. Sovet ordusu hissələrinin Qafqaza əks hücumu ərəfəsində qısa müddətdə Bakıdan cəbhəyə 17.510 vaqon hərbi texnika, sursat və ləvazimat göndərilmişdi.[2] Müharibənin ilk iki ili ərzində Bakı dəniz limanından ölkənin başqa yerlərindən köçürülmüş 29000 vaqon yük yola salınmışdı.

17 yanvar 1943-cü ildə Azərbaycan KP MK-si DMK-dən əhalinin Zaqafqaziya və Krasnovodskdan köçürülməsinin dayandırılması barədə əmr aldı.[3] Bakıdan əhalinin işğalçılardan azad olunmuş torpaqlara yenidən qaytarılması başladı.

İkinci dünya müharibəsi illərində Bakı dəniz limanı hərbi və strateji xarakterli vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmişdi. Müharibənin tələblərinə uyğun iş qrafikində kəskin dəyişikliklər edilən limandan çox böyük miqyasda yükdaşımalar həyata keçirilmiş, liman beynəlxalq tranzit dəhlizinə çevrilmişdi. İşğal olunmuş torpaqlardan əhali ölkənin şərq rayonlarına köçürülməsi və sonradan geri qaytarılması da Bakı dəniz limanı vasitəsilə həyata keçirilmişdi. Bakı dəniz limanı vasitəsilə cəbhənin hərbi əhəmiyyətli yüklər və döyüş sursatları ilə vaxtında təmin edilməsi qələbənin əldə olunmasında həyati əhəmiyyət daşımışdır .

III Fəslin II yarımfəsli **"Bakı dəniz limanı İran limanları vasitəsilə SSRİ və müttəfiq dövlətlər arasında beynəlxalq dəniz limanı rolunda"** adlanır.

---

[1] İmanquliyev N. Zəhmətkeşlərin əmək qəhrəmanlığı uğrunda. Bakı, 1967, s.217

[2] ARPİİSSA. F. 31, siyahı 2, iş 1006, 1942, v..60

[3] Эдлинский С.Ф. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. Москва: «Морской транспорт».1963, s. 118

Bakı dəniz limanı 1941-1945-ci illər müharibəsi dövründə SSRİ, müttəfiq dövlətlər və İran arasında strateji yüklərin daşınması işində müstəsna rol oynamışdı. Şübhəsiz Bakı dəniz limanının müharibə illərində beynəlxalq əhəmiyyətli limana çevrilməsi onun İran limanları ilə birbaşa ticarət əlaqələrə malik olması ilə səciyyələnir.

Öz təhlükəsizliyini təmin edilməsi məqsədi ilə SSRİ və Böyük Britaniya arasında İrana qoşun yeridilməsi ilə bağlı razılıqdan sonra Bakı dəniz limanından hərəkət edən sovet hərbi donanma gəmiləri 25 avqust 1941-ci ildə İran sahillərinə desant çıxardı.[1] Sovet ordusu tərəfindən İranın şimal hissəsinin nəzarət altına alınması ilə Qafqazın cənubundan almanlar tərəfindən gözlənilən real təhlükə aradan qalxmış və qərb ölkələrindən SSRİ-yə gətirilən strateji yüklərin İran ərazisi vasitəsilə daşınmasına imkan vermişdi. Xəzər dəniz ticarət yolları ikinci dünya müharibəsi illərində silah daşıma, döyüş sursatları, hərbi əhəmiyyətli digər yüklərin, həmçinin ABŞ və Böyük Britaniya dövlətlərindən gələn müxtəlif tipli yükdaşımalarda ikinci yer tutdu. Artıq 1941-ci ildən və xüsusilə lend-liz adlı qanunun qəbulundan sonra Amerikadan və İngiltərədən İran ərazisindən keçməklə və Bakı dəniz limanı vasitəsilə SSRİ-yə yeni yardım yükləri gəlməyə başladı. Beləliklə liman İran dövləti ilə digər dövlətlər arasında körpü rolunu oynamağa başladı. 1940-cı ildə 37179, 1941-ci ildə 14133, 1942-ci ildə 59767, 1943-cü ildə 365115 min idxal məhsul İrandan Bakı dəniz limanı vasitəsi ilə digər SSRİ-yə göndərilmişdi.[2]

Müharibə illərində Bakı dəniz limanı beynəlxalq liman kimi öz rolunun öhdəsindən şərəflə gəlmişdi. Çoxsaylı müxtəlif təyinatlı yüklərin Qərb dövlətləri tərəfindən İran ərazindən SSRİ-yə ötürülməsi qələbənin əldə olunmasında ən mühüm amillərdən biri olmuşdu. Qonşu ölkələrdən dəniz yolu ilə daşınan müxtəlif təyinatlı beynəlxalq yüklər məhz bu limanda qeydə alınır və təyinatı üzrə müxtəlif yerlərə ötürülürdü. İkinci dünya müharibəsinin başlanması XIX əsrin əvvəllərində bölünmüş Azərbaycan məsələsini yenidən yerli və beynəlxalq səviyyədə gündəmə gətirdi. Bundan başqa Bakı dəniz limanı iki dövlət arasında qalan Azərbaycanın şimalı və cənubu arasında yeni mədəni və siyasi əlaqələrin də yaranmasında tranzit yolu kimi iştirak etmişdir.

Üçüncü yarımfəsl “**1941-1945-ci illərdə Bakı dəniz limanının daxili fəaliyyəti və limançıların fədakar əmək qəhrəmanlıqları**” adlanır. Müharibə Bakı dəniz limanının işini kəskin surətdə dəyişmişdi. Müharibə illərində Bakı dəniz limanının yük dövriyyəsi daha da artmağa başladı. Bu zaman o, SSRİ-nin Avropa hissəsini İran və SSRİ-nin Orta Asiya respublikaları ilə

---

[1] Аббасов М.Г, А.Гритченко, Р.Зейналов. Азярбайджан в годы еликой Отечественной войны (1941-1945 гг.). Баку: «Елм» 1990, s.47

[2] ARPİİSSA .F.1, siy.169, iş 9, v.53

birləşdirən ən əlverişli yol kimi mühüm əhəmiyyət kəsb edirdi.

İşğal olunmuş ərazilərdən sənaye avadanlıqlarının Bakı dəniz limanına kütləvi gətirilməsi yükboşaltma və yükdaşıma işlərində də çətinliklər yaradırdı. Yüklərin stansiyaya qədər aparılıb vaqonlara yüklənməsi çoxlu vaxt aparırdı. Əvvəllər belə yüklərlə işləməyən limançılar tez bir zamanda böyük miqdarda yüklərin yüklənməsi texnikasını, həmçinin xüsusi diqqət və ehtiyat tələb edən yükləmə texnikasını mənimsədilər. Bu işlərlə eyni zamanda Bakı dəniz limanı işçiləri evakuasiya olunan yüklərin şərq rayonlarına ötürülməsi ilə də məşğul oldular. Müharibənin əvvəllərində ağır avadanlıqlarının emalı üçün limanda mexanizmlər çatışmır və mexanizasiyadan zəif istifadə olunurdu.

1941-ci il müəyyən olunmuş dövlət planına əsasən Bakı dəniz limanının yük dövriyyəsi 536.000 ton olsa da liman 406.5 min ton yük işləyə bilmiş, planı 75.8 faizi yerinə yetirmişdi.[1] Limanın planı yerinə yetirə bilməməsinin səbəbi yüklərin emalı üzrə zəif təşkilatçılıq işləri, yükləmə-yükboşaltma mexanizmlərinin qeyri-qənaətbəxş istifadəsi, yeni növ yüklərin böyük axını, donanmanın bir sıra gəmilərinin Xəzər Hərbi Donanmasına verilməsi və gəmi tonnajının çatışmazlığı olmuşdur.

Əmək məhsuldarlığının artırılması üçün əmək yarışmaları və işçiləri həvəsləndirmək məqsədi ilə onlara keçici qırmızı bayraqların verilməsi böyük təsir göstərirdi. 1942-ci ildə limançılar planı 113.4 faiz yerinə yetirmişdi.[2] Bakı dəniz limanı işçilərinin zəhməti rəhbərlik tərəfindən də qiymətləndirilirdi. 1942-ci il dekabr ayında 113 nəfər liman işçisi mükafatlandırıldı.[3]

1943-cü ilin əvvəllərindən Bakı dəniz limanı vasitəsi ilə əhalinin işğaldan azad edilmiş doğma torpaqlarına qaytarılmasına başlanıldı. İşğal olunmuş rayonlar azad olduqca, dəmir və dəniz yolu nəqliyyatının ümumi yük dövriyyəsində xalq təsərrüfatının müxtəlif sahələrinin bərpası üçün nəzərdə tutulmuş yüklərin xüsusi çəkisi artırdı. 1943-cü ildə yük miqdarının artmasına baxmayaraq limançılar vəzifələrinin öhdəsindən gələ bilirdilər. Bunun əsas səbəbi limanda quruculuq işlərinin aparılması idi. Nəticədə ölkə daxili və xarici yük dövriyyəsi xeyli artmışdı. 1943-cü ildə Bakı dəniz limanı illik planı 112,5 fazi yerinə yetirdi Planın yerinə yetirilməsinin bir səbəbi də yüklərin mexanikləşdirmə yolu ilə işlənməsinin artması (108.5 faiz) olmuşdur. Bakı dəniz limançıları 1943-cü ildə yüklərin əsasən mexanikləşdirilərək emal olunmasına nail oldular.

[1] ARPİİSSA .F. 2, siy. 53, iş 28, v.4
[2] ARPİİSSA .F.1, siy. 280, iş 3, v..29
[3] ARDA. F.3105, siy. 4, iş 14, v..51

Liman 1944-cü ilin illik planını 90.2 faiz yerinə yetirir.[1] Bunun əsas səbəbləri dəmiryol nəqliyyatı ilə işlərin düzgün qurulmaması, boş vaqonların vaxtında verilməməsi, İran limanlarından gələn yüklərin natamam olması, yüklərin qablaşdırılmasının səliqəsiz vəziyyətdə olması və s. idi. Ancaq bunlara baxmayaraq cəbhənin və xalq təsərrüfatının ehtiyacları üçün xaricdən gətirilən yüklərin, habelə yanacağın daşınması haqqında hökumət tapşırıqlarını uğurla yerinə yetirdikləri 1944-cü ildə limanın böyük bir qrup mexanizator dəstəsi orden və medallarla mükafatlandırılmışdı. Ümumiyyətlə 1944-cü ildə 58 nəfər dövlət tərəfindən təltif olunmuşdu.[2] Bakı dəniz limanı kollektivi bütünlüklə müharibənin sonuna qədər onlara tapşırılmış işləri yerinə yetirməyə çalışırdı.

Limanın işlərini həmin illərə görə səciyyələndirsək görürük ki, müharibənin əvvəllərində Bakı dəniz limanında müharibənin birinci ili ərzində yüklərin işlənilməsinin aşağı düşməsinə və planın yerinə yetirilməməsinə baxmayaraq 1942-ci ildən başlayaraq liman yüklərin işlənilməsi işində mühüm rol oynamış, idxal və ixrac işlərini yerinə yetirə bilmişdir. Yüklənmə və yükboşaltma işləri 1941-ci ildə 406 min ton olmuş, 1944-cü ildə isə 890 min tona qədər qalxmışdı. Ən böyük göstərici isə 979 min ton ilə 1943-cü il olmuşdur.[3]

1941-1945-ci illərdə Bakı dəniz limanı ölkənin işğal olunmuş qərb rayonlarının əhalinin və sənaye avadanlıqlarının köçürülməsi və sonradan əks istiqamətdə geri daşınmasını işlərini böyük uğurla həyata keçirmişdi. İkinci dünya müharibəsi illərində Bakı dəniz limanı iri hərbi-strateji bazaya çevrildi. Digər xalq təsərrüfatı sahələrində olduğu kimi liman öz işini qələbənin əldə olunmasına yönəltmişdi. İşlərin düzgün qurulması, təbliğatın yüksək aparılması, nizam intizamın möhkəmləndirilməsi, ən əsası liman işçilərinin vətənpərvərlikləri qələbənin əldə olunmasına böyük oynadı.

**“Nəticə”** hissəsində dissertasiya işinin məqsəd və vəzifələrindən irəli gələn ümumiləşdirmələr aparılmış, tədqiqat prosesində əldə olunan nəticələr verilmiş, yeni elmi fikir və təkliflər öz əksini tapmışdır.

---

[1] Yenə orada. Fond 2, siyahı 53, iş 28, qutu 1, 1945, s.4

[2] Эдлинский С.Ф.. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. Москва: «Морской транспорт».1963, s.96

[3] ARPİİSSA: F 2, siy.53, iş 28, v 4

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır.**

1. Оккупация восточной части Ирана Советскими войсками в 1941-1945 годах и превращение Бакинского порта с помощью Иранских портов в средство связи с союзными странам и СССР // НАУКА: 21 ВЕК, Саратов, 2009, №4, с.81-86.
2. Bakı dəniz limanı II dünya müharibəsinə qədər // AMEA, "Gənc Alimlərin I Respublika İnnovavativ ideya Yarmarkası" konfransının materialları, Bakı, 2010, s.157-160.
3. 1941-1945-ci illər müharibəsi dövründə Bakı dəniz limanı və yükdaşımaların təhlükəsizliyinin təmin olunması // AMEA, Tarix İnstitutu, Elmi əsərləri, 2012, 41-43-cü cild, s.177-183
4. Bakı dəniz limanının 1941-1945-ci illlər müharibəsi dövründə yenidən qurulması və texniki-təchizat problemlərinin həll olunması // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2015, №2, s.81-88.
5. Bakı dəniz limanında quruculuq işləri (XX əsrin 20-30-cu illəri) // Tarix və onun problemləri, Bakı, 2016, №1, s.139-145
6. Bakı dəniz limanı Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) // Tarix və onun problemləri, Bakı, 2016, №2 , 139-143
7. II dünya müharibəsi illərində Bakı Dəniz Limanının iqtisadi və hərbi strateji əhəmiyyəti AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1, s.23-31
8. 1941-1945-ci illər müharibəsi dövründə Bakı Dəniz limanının kadrlarla təminatı // AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №2, s. 33-41.
9. Деятельность Бакинского морского порта как международного порта в годы Второй мировой войны // "Гілея: науковий вісник", Kiyev, 2016, №5, c.113-116

**Г.П. Гусейн**

# БАКИНСКИЙ МОРСКОЙ ПОРТ В ПЕРИОД ВОЙНЫ 1941-1945 г.г.

## РЕЗЮМЕ

Тема данной диссертации «Бакинский морской порт в период войны 1941-1945 гг.» впервые как самостоятельная проблема исследуется в современной азербайджанской историографии. Тема впервые исследуется в комплексе и на основе новых фактов.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**Во введение** обосновывается актуальность темы, дается информация о целях и задачах исследования, источниковой базе и степени изученности проблемы, новизне, практической значимости, методологических основах, апробации и структуре диссертации.

**Первая глава** диссертации называется **«Бакинский морской порт до начала Второй мировой войны».** Эта глава состоит из четырех параграфов. В этой главе даются сведения о древней и средневековой истории Бакинского морского порта, о положение порта в период нахождения Азербайджана в составе царской России, о деятельности порта в период Азербайджанской Демократической Республики, о реконструкции и внутренней жизни порта после советской оккупации и накануне Второй мировой войны.

**Вторая глава** диссертации называется **«Начало Второй мировой войны. Повышение военно-стратегического значения Бакинского морского порта, его перестройка в соответствие с требованиями военного времени»**. Вторая глава состоит из трех параграфов. В этой главе рассматриваются следующие вопросы: международное значение и роль Баку накануне и в годы Второй мировой войны, Баку в планах великих держав, перестройка работы порта в соответствие с требованиями военного времени, решение вопросов технического обеспечения и безопасности порта, обеспечение Бакинского морского порта кадрами и их социально-культурное положение, обеспечение безопасности перевозки грузов через Бакинский морской порт в Каспийском море.

**Третья глава** диссертации называется **«Деятельность Бакинского морского порта в годы войны и его неоценимое значение и роль в победе».** Эта глава состоит из трех параграфов.

В этой главе исследуются следующие вопросы: роль Бакинского морского порта в выполнение приказов государства и армии экономического и военно-стратегического характера, превращение Бакинского морского порта в годы войны в единственный узел связи между СССР и союзниками посредством иранских портов, внутренняя жизнь порта, героический труд портовиков, их вклад в победу над фашизмом.

**В заключение** диссертации подведены итоги исследования, сделаны основные выводы по изучаемой проблеме.

**G.P. Huseyn**

## BAKU SEAPORT DURING THE WAR OF 1941-1945 YEARS

## RESUME

For the first time in Azerbaijan's historiography, the issue "Baku Seaport during the War of 1941-1945 years" has been studied as a seperate research subject in this dissertation. The subject has been researched in a comprehensive manner, researches have been taken and new facts have been fund out for the first time. Issues related to the problem have been generalized and there has been got scientific inferences.

The research work consists of introduction, three chapters, conclusion and references. In introduction part, the actuality of the issue is sunbtatiated and there is given information on the research goals and objectives, its source studies, level of research, scientific innovation, practical significance, methodological basis, approbation and the structure of dissertation.

The first chapter of the dissertation is called "the history of Baku Seaport till the Second World War". It consists of four (4) semi-chapters. In this chapter the ancient and medieval history of Baku Seaport, its situations during the invasion periods of Azerbaijan under Tsarist Russia, its activity by the establishment of Azerbaijan Democratic Republic and duties before the independent Azerbaijan State and after the invasion by Soviet, and its description, domestic activity, and reconstruction is widely studied.

The second chapter is named as "the beginning of the Second World War. The rise of military-strategic importance of the port and its reconstruction fitting to the period of war".

**The second chapter consists of three (3) chapters. In this chapter there is elucidated an international importance and role of Baku on the eve of the Second World War, Baku Plan of great powers, the reconstruction of the port militarily by the begining of War, resolving logistic and security problems, the staff recruitment to Baku Seaport and their social-cultural living conditions, ensuring the safety of Baku seaport and cargo transportation in the Caspian Sea.**

The third part of dissertation is callad as "The activity of Baku Seaport in the years of War and its unprecedented significance in victory". This chapter consists of three (3) semi-chapters. The role of Baku Seaport in fulfiling the duties as economical and military-strategic based on orders by the government and army, its being the only connection among USSR and allied states by the means of Iranian ports, the domestic activity of Baku Seaport and the labor selfless heroism of the port workers in the victory over german nasism is studied extensively.

In conclusion part, there is given the basic generalized thoughts of the research work and presented the arrived results in the learning of the issue.

Sifariş № 17. Tirajı 100 nüsxə

Azərbaycan MEA Geologiya və Geofizika İnstitutu
«Nafta-Press» nəşriyyatının mətbəəsi
Bakı, H.Cavid pr. 119, Tel.: 539-39-72

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГЮНАЙ ПАНАХ кызы ГУСЕЙН**

# БАКИНСКИЙ МОРСКОЙ ПОРТ В ПЕРИОД ВОЙНЫ 1941-1945 г.г.

Специальность: 5503.02 – Отечественная история

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2017**